# GƏNCƏ: QAYĞIDAN DOĞAN SÜRƏTLİ VƏ İNNOVATİV İNKİŞAF

**Gəncə Şəhər İcra Hakimiyyətinin möhtəşəm zalında, şəhər icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət, xidmət sahələrinin rəhbərləri, ziyalılar və geniş ictimaiyyətin nümayəndələrinin iştirakı ilə 2015-ci ilin birinci rübünün yekunları və qarşıda duran vəzifələrə həsr edilmiş geniş yığıncaq keçirilmişdir. Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev qeyd etdi ki, ölkə başçısının Gəncəyə olan qayğı və diqqəti sayəsində son illər şəhərin bütün sahələrində müşahidə olunan dinamik inkişaf 2015-ci ilin birinci rübündə də davam etmişdir. Şəhərin inkişafını xarakterizə edən ümumi məhsul buraxılışı 2,6 faiz və ya müqayisəli qiymətlərdə 4,1 milyon manat artaraq 159,7 milyon manata çatmışdır.**






Əhalinin hər bir nəfərinə düşən ümumi məhsulun həcmi 2,4 faiz artaraq 485,4 manat təşkil etmişdir.

Ümumi daxili məhsulun 72,9 faizi qeyri-dövlət bölməsinin payına düşmüşdür.

Ümumi daxili məhsul buraxılışının 52,0 faizi iqtisadiyyatın məhsul istehsalı, 48,0 faizi isə xidmət sahələrinin payına düşür. Hesabat dövründə şəhər iqtisadiyyatında çalışan işçilərin orta aylıq əmək haqqı 319,3 manat, ötən ilin müvafiq dövründə isə 309,6 manat təşkil etməklə 3,1 faiz artmışdır.

Qeyri-neft sektorunun inkişafı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindəndir. Şəhər sənayesində 2015-ci ilin ilk üç ayında 56 milyon 493 min manatlıq məhsul istehsal olunmuş və xidmətlər göstərilmişdir.

2014-cü ilin birinci rübü ilə müqayisədə istehsal edilən mal və xidmətlərin həcmi 2,1 faiz artmış, ümumi istehsalın 88,9 faizi sənaye mallarının, 11,1 faizi isə sənaye xarakterli xidmətlərin istehsalı hesabına yaradılmışdır.

Emal bölməsinin müəssisələri və fərdi sahibkarlar tərəfindən 50 milyon 647,7 min manatlıq məhsul istehsal olunmuş və istehsalın həcmi 1,7 faiz artaraq 51,2 faizi bilavasitə qeyri-dövlət sahibkarlıq subyektləri tərəfindən istehsal edilmişdir.

2015-ci ilin birinci rübündə sənayenin emal bölməsində istehsal olunmuş məhsulun 9,0 faizi qida məhsullarının, 2,9 faizi içki məmulatlarının, 36,0 faizi metallurgiya və hazır metal məmulatları istehsalı sahələrinin, 52,1 faizi isə digər bölmələrin payına düşür.

Eyni zamanda 2015-ci ilin birinci rübündə elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava və təchizat bölməsində 3,8 faiz, su təchizatı, çirkli suların və tullantıların təmizlənməsi sektorunda 0,2 faiz artım əldə edilmişdir.

Cənab Prezident İlham Əliyev regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda bildirmişdir ki, “Gəncə şəhəri isə əminəm ki, gələcəkdə Cənubi Qafqazın üçüncü böyük sənaye şəhərinə çevriləcəkdir. Bu məqsədlər üçün lazımi tədbirlər görülür”.

Möhtərəm Prezident cənab İlham Əliyevin xeyir-duası ilə təməli qoyulmuş ən müasir standartlara cavab verən sərnişin vaqonlarının və lokomotivlərin istehsalına dair zavodun tikintisi istiqamətində işlər görülür.

İstehsal gücü sutkada 150 baş iribuynuzlu, 600 baş xırdabuynuzlu, 20 min ədəd toyuq emal edən “Elba Kəsim və Emal Fabrikası” MMC-nin və Vəli Xuluflu və Vaqif küçələrinin kəsişməsində gündəlik istehsal gücü 10 ton olan müasir çörək istehsalı zavodunun 2015-ci ildə istifadəyə verilməsi nəzərdə tutulur. Bu istehsal sahələrinin istifadəyə verilməsi ilə 100-dən çox yeni iş yeri yaradılacaqdır.

“Gəncə Avtomobil zavodu” İstehsalat Birliyində Rusiya Federasiyasının Naberejni Çelni şəhəri ilə “KAMAZ” markalı yük maşınlarının yığılması barədə bağlanılmış müqavilənin icrası ilə əlaqədar yeni texnoloji xətlərin quraşdırılması başa çatmaq ərəfəsindədir.

“Gəncə Şərab-2” ASC-də aparılan yenidənqurma işləri ilə əlaqədar cari ilin birinci rübündə 328 min manatlıq və 7 min avro dəyərində müxtəlif avadanlıqlar və torpağı gübrələmək üçün çubuq doğrayan maşın alınmışdır.

2015-ci ilin birinci rübündə şəhərin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsaslı kapitala 36 milyon 205 manat və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,2 faiz çox vəsait yönəldilmişdir.

Tikinti-quraşdırma işlərində istifadə edilmiş vəsaitin həcmi ümumi sərmayənin 92,0 faizini təşkil edərək 33 milyon 310 min manat olmuşdur.

Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq son illərdə Gəncə şəhərinin tarixi siması qorunub saxlanılmaqla şəhərsalma, istirahət-turizm infrastrukturunun yeniləşməsi sahələrində hər il olduğu kimi, cari ilin əvvəlindən də bu sahədə mühüm tədbirlər həyata keçirilməklə, yerinə yetirilən işlər şəhər icra hakimiyyətinin daim diqqət mərkəzində saxlanılmaqla icra edilir.

Dövlət başçısının möcüzə adlandırdığı Heydər Əliyev Park Kompleksində 4 min kv. metr ərazidə Əyləncə Mərkəzinin və Qış Parkının, həmçinin beynəlxalq standartlara cavab verə biləcək 17 hektar ərazidə Gəncə Olimpiya Parkının tikintisinə başlanılması istiqamətində işlər aparılır.

Ölkə Prezidentinin xeyir-duası ilə təməli qoyulmuş 1200 tamaşaçı yeri olan Gəncə Dövlət Filarmoniyasının və tamaşaçı zalı 520 nəfər üçün nəzərdə tutulmuş Gəncə Dövlət Dram Teatrının yeni binasının inşası davam etdirilir.

Atatürk prospekti, 264 və 266 ünvanda inşa edilən 50 mənzilli 5 mərtəbəli yaşayış binasının tikintisi sürətləndirilmiş, cari ilin ikinci yarımilliyində bu binanın istifadəyə verilməsi nəzərdə tutulur. Eyni zamanda bu prospektdə Respublika Təhsil-İdman Məktəbinin qarşısında ümumi yaşayış sahəsi 32 min 819 kv. metr olan 4 ədəd 7 mərtəbəli, 2 ədəd 5 mərtəbəli yaşayış binası inşa edilir. Ş.İ.Xətai prospekti, 34 ünvanda 4,96 ha ərazidə ümumi sahəsi 16 min kv. metrdən çox olan 3 bloklu, 1 mərtəbəli yaşayış evinin, 2 mərtəbəli qeyri-yaşayış sahəsinin inşası davam etdirilir. Nizami prospekti ilə Kimyaçılar küçəsinin kəsişməsində 0,5 hektar torpaq sahəsində 4 ədəd 1 bloklu, çoxmərtəbəli yaşayış binasının tikintisi üçün layihə-smeta sənədləri hazırlanır.Yeni Gəncə yaşayış massivində isə “Yeni Gəncə yaşayış Kompleksi” MTK tərəfindən 3,3 ha torpaq sahəsində 2,4 və 8 bloklu, ümumi sahəsi 69,6 min kv. metrdən çox yaşayış kompleksinin və Cavad xan küçəsi, 34 ünvanda 7 mərtəbəli, ümumi sahəsi 5 min 586 kv. metr olan Biznes Mərkəzinin tikintisi aparılır. Ş.İ.Xətai prospekti ilə V.Xuluflu küçəsinin kəsişməsində Gəncə Şəhər Prokurorluğunun müasir tələblərə cavab verən dördmərtəbəli yeni inzibati binasının tikintisi davam etdirilir, burada işçilərin işləməsi üçün hər cür şərait yaradılacaqdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə, eləcə də Gəncə şəhərində iqtisadiyyatın və əhalinin elektrik enerjisi, qaz və suya olan tələbatının dolğun ödənilməsi və fasiləsiz təchizatının təmin edilməsi, həmçinin istehlakçılara təklif olunan bu xidmətlərin beynəlxalq standartlar səviyyəsinə çatdırılması istiqamətində aidiyyəti qurumlar tərəfindən ardıcıl məqsədyönlü tədbirlər həyata keçirilir. Həyata keçirilən tədbirlər nəticəsində Təbriz, Ozan, Dədə Qorqud, F.Əmirov, Kimyaçılar və digər küçələrdə, Nizami prospektində yenidənqurma işləri başa çatdırılmış, həmin ərazinin istehlakçılarının elektrik enerjisi ilə təchizatı daha da yaxşılaşdırılmış və müasir standartlar səviyyəsinə gətirilmişdir.

Bununla bərabər, Yüksək Gərginlikli Elektrik Şəbəkəsində 110/35/6 kV-luq plan qrafik üzrə nəzərdə tutulmuş plan qrafikə əsasən 41 yarımstansiyada əsaslı və cari, həmçinin 48 yarımstansiyada ümumi təmir işləri aparılmışdır.

2015-ci ilin birinci rübündə təbii qazın istehlakı əvvəlki ilin müvafiq dövrünə nisbətən 10,6 faiz artaraq 62 milyon 228 min kubmetr təşkil etmiş, onun 12,3 faizi sənaye, 6,8 faizi kommunal büdcə ehtiyatlarına sərf edilmiş, 80,9 faizi isə əhaliyə satılmışdır ki, bu da 2014-cü ilin birinci rübü ilə müqayisədə müvafiq olaraq 7,2 faiz və 5,0 faiz artmışdır.

Şəhərdə içməli suya olan tələbatın ödənilməsi vəziyyətinin yaxşılaşdırılması istiqamətində hər il olduğu kimi, cari ilin əvvəlindən də mühüm işlər görülmüşdür. Dövlət başçısının dəstəyi ilə reallaşan Almaniya İnkişaf Bankı ilə birgə maliyyələşdirilən “Açıq Kommunal İnfrastruktur” layihə çərçivəsində şəhərin su və kanalizasiya şəbəkəsinin yenidənqurulması işləri, həmçinin Əziz Əliyev küçəsində 4 min 300 metr məsafədə şəhər və məhəllədaxili su və kanalizasiya xətlərinin tikintisi davam etdirilir.

Gənc nəslin tərbiyəsi, sağlamlığı, təhsili, intellektual və mənəvi inkişafı, gənclərin faydalı məşğulluğunun təmin edilməsi, idmanın dəstəklənməsi istiqamətində aparılan məqsədyönlü işlər bu ilin əvvəlindən də davam etdirilmişdir.

Gənclər və İdman Baş İdarəsi hesabat dövründə gənclərlə iş sahəsi üzrə 40-dan çox müxtəlif tədbir keçirmiş, həmin tədbirlərdə 5 min 900-dən artıq gənc iştirak etmişdir. “Gəncə Avropa Gənclər Paytaxtı 2016” layihəsi çərçivəsində gənclər üçün çalışan qeyri-hökumət təşkilatları, tələbə gənclər təşkilatları, Gənclər evi və klubları, o cümlədən biznesyönümlü təşkilatların sərgisi keçirilmiş, karyera həftəsi layihəsi həyata keçirilmişdir.

2015-ci ilin yanvar-mart ayları ərzində Gəncə idmançıları müxtəlif səviyyəli Respublika, dünya, Avropa, beynəlxalq yarışlarda iştirak edərək, 90 müxtəlif əyarlı medal, o cümlədən 38 qızıl, 30 gümüş, 22 bürünc medal qazanmışlar.

Şəhərimizin idmançılarından Macarıstanın Budapeşt şəhərində keçirilən parolimpiyaçılarının cüdo üzrə dünya çempionatında Qasımov Ramil I yerə, Bolqarıstanın Sofiya şəhərində keçirilən böyüklər arasında boks üzrə beynəlxalq turnirdə İsayev Elvin I yerə, Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən parolimpiyaçılar arasında poverliftinq üzrə Dünya kuboku yarışında Babacanov Əli II yerə, Rusiya Federasiyasının Moskva şəhərində keçirilən yeniyetmələr arasında sambo üzrə Dünya kuboku yarışında isə Qasımov Amil I yerə layiq görülmüşlər. 31 yanvar 2015-ci il tarixində ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncamla AMEA-nın Gəncə Bölməsinin gənc doktorantı Elnur Həsənov “Elm üzrə Prezident mükafatı” ilə təltif edilmişdir.

Şəhərimizdə bütün sahələrdə əldə edilən nailiyyətlər möhtərəm Prezident cənab İlham Əliyevin diqqət və qayğısının nəticəsidir. Bunun üçün şəhər sakinləri adından ölkə Prezidentinə bir daha minnətdarlığımı bildirməklə, dövlət başçısını əmin edirəm ki, Gəncə sakinləri həmişə olduğu kimi, yenə də ulu öndər Heydər Əliyev siyasi kursuna sadiqliyi nümayiş etdirəcək, əldə edilmiş uğurların daha da artırılması və ölkəmizin iqtisadi qüdrətinin günü-gündən möhkəmləndirilməsi üçün əzmlə çalışacaqlar.

Məruzə ətrafında açıq mikrafonda çıxışlar olmuşdur.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**